**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**QƏMƏR SÖHBALI qızı ALXANOVA**

# TÜRK ƏDƏBİYYATINDA PSİXOLOJİ ROMAN

5717.01 - Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

**Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir**

---

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Əsgər Adil oğlu Rəsulov**<br>filologiya üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Elman Hilal oğlu Abıyev**<br>filologiya üzrə elmlər doktoru, professor |
| | **Nurlana Musa qızı Qasımlı**<br>filologiya üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı müəssisə:** | Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, "Türk xalqları" şöbəsi |

**Müdafiə** "___"________2018-ci il saat______də Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdindəki FD.01.151- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ - 1143. Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"___________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru:** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşər tarixinin öz mürəkkəbliyi və dramatizmi ilə səciyyələnən ictimai-siyasi prosesləri hər zaman bədii ədəbiyyatın humanitar ideya istiqamət və meyllərinin müəyyənləşməsində mühüm yer tutmuşdur. İnsanın sosial həyatı və mənəviyyatının çoxşaxəli problemləri söz sənətinin janrlarında ifadə olunur, ədəbiyyat onların inikası, həlli yolları və oxucuya təqdimatına yönəldilir. Digər bədii janrlarla müqayisədə roman istər ədəbi-fəlsəfi, istər sosial-psixoloji, istərsə də mədəni-məişət problemləri dərindən və hərtərəfli əks etdirmək baxımından sənətkar qarşısında daha geniş imkanlar açır. Bu janrın müxtəlif formaları içərisində modern kreativ düşüncə tərzinin real və irreal müstəvidə, müəllif təhkiyəsində, yaxud bədii obrazların mükalimələrində, qəhrəmanların daxili monoloqlarında, yaxud hərəkət və davranışlarında, xüsusən şüurun alt qatlarında, yaxud şüur axını şəklində gerçəkləşməsində psixoloji roman böyük əhəmiyyət kəsb edir. Sözsüz ki, belə bir şəraitdə türk nəsrində təxminən yüz iyirmi illik bir yol keçmiş, lakin bu günə qədər sistemli şəkildə elmi tədqiqata cəlb edilməmiş psixoloji romanının araşdırılması aktuallıq qazanır və problemin yeni humanitar təfəkkür prizması və müasir ədəbi-nəzəri baxış bucağından öyrənilməsinə zərurət yaranır.

Problemin həllinin vacibliyi bir də buradan irəli gəlir ki, müasir türk nəsrində qəhrəmanların mənəvi aləminin təsviri yazıçıların yaradıcılığının əsas xəttini formalaşdırdığı üçün modern Türkiyə ədəbi prosesini bu romanlarsız təsəvvür etmək mümkün deyil. Psixoloji romanlar türk xalqının bütövlükdə sosial-psixoloji vəziyyətindən tutmuş, fərdlərin keçirdiyi mənəvi sarsıntıları, şəxsi dramları və narahatlığı barədə fikir formalaşmasına münbit zəmin və şərait hazırlayır.

Mövzunun aktuallığı həm də buradan qaynaqlanır ki, tədqiqat işi bütövlükdə Tənzimat dövründən başlayan yeni tipli türk nəsrinin dinamikasını, türk romanının ideya-estetik prinsiplərinin təkamülünü müəyyənləşdirməyə, inkişaf perspektivlərinin aydınlaşdırılmasına, tematika əlvanlığı və bədii imkanlarının, onları zənginləşdirən başlıca ədəbi-ictimai amillərin, sosial səbəblərin ortaya çıxarılmasına imkan yaradır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada məqsəd geniş bir tarixi dövrü əhatə edən türk psixoloji romanının təşəkkülü, təkamülü və inkişaf mərhələlərini araşdırmaqdan, psixoloji əsərlərdə işlənən başlıca mövzuları müəyyənləşdirməkdən, lirik-psixoloji, sosial-psixoloji və fəlsəfi-psixoloji romanlarda tip və xarakterlərin danışıq, hərəkət və davranışlarını

şərtləndirən zaman, məkan, ictimai mühit, eləcə də genetik fərdi-psixoloji motivləri müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın obyekti.** Tədqiqat işinin obyekt dairəsinə türk nəsrində Namiq Kamal, Nəbizadə Nazim, Xalid Ziya və Məhməd Raufun psixoloji romanın bu günkü mənada ilk nümunələrindən hesab edilən "İntibah" ("İntibah"), "Zəhra" ("Zehra"), "Qadağan eşq" ("Aşk-ı Memnu") və "Sentyabr" ("Eylül") əsərlərindən tutmuş, yeni və ən yeni dövr türk ədəbiyyatı nümayəndələri – Rəşad Nurinin "Çalıquşu" ("Çalıkuşu"), "Qadın düşməni" ("Bir Kadın Düşmanı"), "Dodaqdan qəlbə" ("Dudaktan Kalbe"), Peyami Safanın "Doqquzuncu ümumi cərrahi xəstəliklər palatası" ("Dokuzuncu Hariciye Koğuşu"), "Bir tərəddüdün romanı" ("Bir Tereddütün Romanı"), "Sözdə qızlar" ("Sözde Kızlar"), "Yalnızıq ("Yalnızız"), "Şimşək" ("Şimşek"), Sait Faiqin "Bir qrup insanlar" ("Bir Takım İnsanlar"), Oğuz Atayın "Dözə bilməyənlər" ("Tutunamayanlar"), Ədalət Ağaoğlunun "Ölməyə yatmaq"("Ölmeye Yatmak"), Əlif Şəfəqin "Qara süd" ("Siyah Süt"), "Ata və bic" ("Baba ve Piç"), Mətin Kaçanın "Ağır roman" ("Ağır roman"), Yusif Atılqanın "Avara adam" ("Aylak Adam"), "Anayurd oteli" ("Anayurd oteli"), İnci Aralın "Ölü erkək quşlar" ("Ölü Erkek Kuşlar"), Duyqu Asenanın "Paramparça", Ayşə Kulinin "Gizli anların yolçusu" ("Gizli Anların Yolcusu"), Şəbnəm İşigözəlin "Sarmaşıq" ("Sarmaşık"), Ece Təməlkuranın "Düyünlərə üfləyən qadınlar" ("Düğümlere Üfleyen Kadınlar"), Əhməd Altanın "Son oyun" ("Son Oyun"), Aşkım Qapışmaqın "Üzümlü keks" ("Üzümlü Kek"), Azra Kohenin "Fi","Çi","Pi" ("Fi","Çi","Pi") kimi təxminən 30-dan artıq müəllifin 50-yə yaxın lirik-psixoloji, sosial-psixoloji və fəlsəfi-psixoloji romanları daxildir. Bununla yanaşı, dissertasiyada müasir psixoloji romanın yaranmasına qədərki mərhələlər, roman janrının digər tip və formaları mövzunun məzmun və mündəricəsinə uyğun psixoloji romanla oxşar və fərqli xüsusiyyətlərinin müqayisəli təhlili müstəvisində nəzərdən keçirilmişdir. Tədqiqatın predmetini isə dissertasiyada təhlilə cəlb edilən psixoloji romanlarda mövzu rəngarəngliyi, ideya-məzmun xusiyyətləri, tip və xarakterlər, konflikt və onun bədii həlli yollarının öyrənilməsi təşkil edir.

**Tədqiqatın metodoloji və nəzəri əsaslarını** filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, əbəbi-bədii materialın sistemli şəkildə araşdırılması, müasir ədəbiyyatşünaslıq və psixologiyanın əldə etmiş olduğu son nailiyyətlər təşkil edir. Tədqiqat zamanı sosial-tarixilik prinsipinə ardıcıl riayət edilmiş, tipoloji-müqayisəli təhlil metoduna üstünlük verilmişdir.

Tədqiqat işi fərqli araşdırma metodlarını və istiqamətlərini ehtiva edən komparativ üsulla yazılmışdır. Nəticədə, qarşılaşdırılan fərqli ədəbi cərəyanlara və mərhələlərə mənsub ədiblərin, əslində, vahid ədəbi qaynağa aid olduqları, hadisə və obyektlərə öz kredolarından yanaşma səbəbindən bir-birinə müxalif göründükləri müəyyənləşdirilmişdir. Dissertasiya işinin yazılması zamanı türk ədəbiyyatşünaslığında mühüm xidmətləri olmuş araşdırıcıların tədqiqat işlərinə üstünlük verilmiş, müxtəlif elmi konfransla-rın materiallarına və avtoreferatlara da müraciət edilmişdir.

**Mövzunun tədqiqat tarixi.** İndiyə qədər Azərbaycan türkologiyasın da psixoloji romanın bədii-estetik dərki problemi və bu janrda qələmə alınmış əsərlərin ideya-məzmun və sənətkarlıq məsələləri haqqında ümumiləşdirici elmi-nəzəri əsər yazılmamışdır. Bununla yanaşı, türk ədəbiyyatı, xüsusilə bədii nəsri haqqında yazılan tədqiqatlarda, türk ədiblərinin həyat və yaradıcılığına həsr edilmiş monoqrafiyalarda, tədqiqat xarakterli əsərlərdə dissertasiyanın obyekti olan mövzuya, onun nəzəri-estetik məsələlərinə, sənətkarlıq xüsusiyyətlərinə pərakəndə şəkildə olsa da toxunulmuş, qiymətli fikirlər söylənmişdir.[1]

İlk növbədə, türk nəsrinin müxtəlif mərhələ və sənətkarlarına dair türkoloq-alimlər Aydın Abiyevin, Aqşin Babayevin, Tofiq Məliklinin, Əsgər Rəsulovun, Sədaqət Qasımlının, Ramazan Əhmədovun, Nurlanə Mustafayevanın, Qəmər Alxanova və s. kimi müəlliflərin monoqrafiya və kitablarını xüsusi olaraq qeyd etmək istərdik.

Tədqiqat mövzumuzun işlənməsi prosesində faydalandığımız türk ədəbiyyatının ümumi məsələlərinə, araşdırılan dövrün bədii söz sənəti korifeylərinin nəsr əsərlərinə dair fikir və mülahizələrini diqqətə aldığımız tanınmış türkşünas-alimlər Nüşabə Araslı, Azadə Musayeva, Jalə Əliyeva, Elman Quliyev, Maarifə Hacıyeva, Xalidə Quliyeva-Qafqazlı, Barat Osmanova, Rəşid Quliyev, Əbdüləli Kərimov, Emilya Xəlilova, Cabbar Bəydili, Elmira Məmmədova, Eşqanə Babayeva, Səriyyə Gündoğdu, Şükufə Qədimova, Aydan Xəndan, Aynur Qasımova, Fatma Dursunova,

---

[1] Əhmədov Ə. Rəşad Nurinin romanları. Bakı: Azərnəşr, 1965, 172 s.; Qasımlı S. Yeni türk hekayəçiliyinin formalaşması (50-60-cı illər). // Şərq filologiyası məsələləri (4-cü buraxılış). Bakı: Əli Nəşr.Evi, 2009, s.577-595; Qasımlı S. Yeni türk hekayəçiliyinin təşəkkülü. // Şərq filologiyası məsələləri (5-ci buraxılış). Bakı: "Bakı Çap Evi", 2010, s.303-323; Quliyev E.Türkiyə türk ədəbiyyatı(XIX-XX əsrlər). Bakı: Orxan, 2003, 122 s.; Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı:conant empary, 2011,568 s.; Quliyev R. Nazim Hikmətin bədii nəsrində Şərq. //Şərq filologiyası məsələləri (3-cü buraxılış). Bakı: Əli Nəşriyyat Evi, 2009, s.596-602;

Həyat Məmmədova, Aygün Rüstəmovanın adlarını minnətdarlıqla xatırladırıq.

Türkiyədə tədqiqat mövzumuzla bağlı bizə məlum olan ilk tədqiqat işi İsmət Əmrənin "Ədəbiyyat və psixologiya" adlı əsəridir. Müəllif kitabda psixologiyanın ədəbiyyata təsiri məsələsini araşdırmış və öz elmi-nəzəri müddəalarını Sami P.Səzainin "Sərgüzəşt" ("Sergüzeşt"), Nəbizadə Nazimin "Zəhra", Mehmet Raufun "Sentyabr" romanlarının bədii-psixoloji təhlilləri müstəvisində əsaslandırmışdır [1]

Bununla yanaşı, görkəmli türk tədqiqatçı və ədəbiyyatşünasları Mesut Tekşan, Yunis Ayatan, Sadiq Yalsızuçanlar[2] və digərlərinin bütövlükdə türk psixoloji romanı, yaxud da ayrı-ayrı əsərlərin psixoloji motivlər bucağından elmi-nəzəri təhlilinə həsr edilmiş qiymətli məqalələri, ədəbi portretləri və memuar oçerkləri vardır.

Dissertasiya işini qələmə alarkən tədqiq edilən çox saylı romanlarda psixoloji situasiyaların müəyyənləşdirilməsində Ziqmund Freydin, Doğan Cücəloğlu və digər psixoloqların əsərlərindən istifadə olunmuş, görkəmli Azərbaycan alimi N.İsmayılov və Ağabəy Sultanovun "Psxiatriya"[3] dərsliklərindən və digər elmi psixiatrik ədəbiyyatlarda şərh və izah edilən psxiatrik xəstəliklərin, psixoloji romanlarda obrazların dilindən verilən çoxtəyinatlı dərman preparatlarının uydurma olmadığı ilə bağlı araşdırmalar edilmiş, müqayisələr aparılmışdır.

Türkiyədə ədəbiyyat tarixi və nəzəriyyəsi, ədəbi növ və janrlarının, xüsusən roman janrının tədqiqi sahəsində böyük xidmətləri olan görkəmli ədəbiyyatşünaslar Mehmet Fuat Köprülü, Agah Sırrı Ləvənd, Mustafa Nihat Özön, Nihat Sami Banarlı, Ahmet Hamdi Tanpınar, Vasfi Mahir Kocatürk, Cevdet Kudret, Faruk K.Timurtaş, Səbihə Sərtəl, Ahmet

---

[1] Dr. Emre İsmet. Edebiyat ve Psikoloji. Ankara: Anı Yayıncılık, 2006

[2]Tekşan Mesut. Batı ve Tanzimat Edebiyatında İntihar. Çanakkale Onsekiz Mart Üniversitesi Edebiyat Arastırmaları Sempozyumu II (16-18 Mayıs 1998);http://turkoloji.cu.edu.tr/YENI%20TURK%20EDEBIYATI/pdf;Yalsızuçanlar Sadık.Psikolojik roman.Hece Dergisi,2002, 841 s.

[3]Freud Sigmund. Psikoanalize Giriş Dersleri. İstanbul: Öteki Yn., 2016, 240 s.; Freud Sigmund. Psikoanaliz ve Uygulama. Çeviren: Muammer Sencer. İstanbul: Say Yayınları, 2001, 302 s.; Freud Sigmund. Yaşamım ve Psikoanaliz. Çeviren: Kamuran Şipal. İstanbul: Say Yayınları, 1993, 122 s.; İsmayılov N.V. Psixiatriya. Bakı: Maarif nəşriyyatı, 1992, 370 s.; Султанов А. Психиатрия. Баку: Азернешр 2003, 238 с.

Kabaklı, Rauf Mutluay, Mehmet Kaplan, Şükran Kurdakul, Seyid Kamal Qaraəlioğlu, Emin Özdəmir, Berna Moran, Gürsəl Aytac, Ramazan Qorxmaz, Sevim Kantarcıoğlu, Zeynəb Kerman və istifadə edilmiş ədəbiyyat siyahısında adları göstərilmiş digər tədqiqatçıların fundamental əsərləri təhlilə cəlb olunaraq elmi-nəzəri ümumiləşdirmələr aparılmış, bu dəyərli alimlərin türk sənədli-bədii nəsrinin janrları ilə əlaqədar fikir və konsepsiyaları tənqidi şəkildə nəzərdən keçirilmişdir.

Dissertasiya yazılan zaman tanınmış Rusiya və dünya şərqşünas-türk oloqları R.Mollov, İ.Tatarlı, L.O.Alkayeva, N.A.Ayzenşteyn, İ.V.Borolina, Y.İ.Maştakova,S.N.Uturqauri, N.Y.Yakovleva) və digərlərinin türk nəsrini n ümumi məsələləri, araşdırılan dövrün bədii söz sənəti korifeylərinin romanları, xüsusilə türk romanının nəzəri-estetik prinsipləri ilə əlaqədar konseptual fikir və mülahizələri diqqətə alınmışdır.

**Tədqiqatın elmi yeniliyi.** İndiyə qədər Azərbaycan türkologiyasında ayrı-ayrı türk yazıçılarının bir neçə psixoloji romanı və əsərlərində psixoloji motivlər pərakəndə şəkildə işıqlandırılsa da, bir problem kimi tədqiqata cəlb edilməmişdir. Bu dissertasiya işi türk nəsrində psixoloji roman janrının təşəkkülü, təkamülü və inkişaf mərhələlərini araşdıran ilk müstəqil monoqrafik tədqiqat əsəridir. Dissertasiyada ilk dəfə olaraq XIX əsrin II yarısından başlayaraq təşəkkül tapmağa başlayan türk romanının çoxşaxəli formaları içərisində psixoloji romanın ilk nümunələrinin yaranması və dövrümüzə qədər keçdiyi inkişaf mərhələləri sistemli şəkildə tədqiqata cəlb edilmiş, müasir türk ədəbiyyatında elmi-psixoloji əsaslarla yazılan psixoloji romanların ətraflı elmi-nəzəri təhlili verilmişdir.

**İrəli sürülən elmi-nəzəri müddəalar:** Dissertasiyada məqsəd geniş bir tarixi dövrü əhatə edən türk psixoloji romanının təşəkkülü, təkamülü və inkişaf mərhələlərini araşdırmaqdan, psixoloji əsərlərdə işlənən başlıca mövzuları müəyyənləşdirməkdən, lirik-psixoloji, sosial-psixoloji və fəlsəfi-psixoloji romanlarda tip və xarakterlərin danışıq, hərəkət və davranışlarını əsaslandıran zaman, məkan, ictimai mühit, genetik fərdi-psixoloji motivləri aşkarlamaqdan ibarətdir. Bu məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və həyata keçirilmişdir:

– türk ədəbiyyatının Namiq Kamalın "İntibah" (1876), Nəbizadə Nazimin "Zəhra" (1894) və Xalid Ziyanın "Qadağan eşq"(1899-1900) kimi ilk romanlarında psixoloji motivlərin bədii-estetik işlənmə formalarının elmi-nəzəri təhlilini vermək;

– Məhməd Raufun "Sentyabr" romanını (1900) türk nəsrinin ilk sosial-psixoloji əsəri kimi təhlil etmək;

– Rəşad Nuri Güntəkinin bədii yaradıcılığını lirik-psixoloji roman müstəvisində tədqiq etmək;

– Peyami Safanın müasir türk fəlsəfi-psixoloji romanının banilərindən biri olduğunu sübuta yetirmək;

– XX əsrin 60-cı - 2000-ci illərdə türk romanlarında psixologizmin təməl komponentlərini müəyyənləşdirmək;

– psixoloji romanlarda tip və xarakterlərin danışıq, hərəkət və davranışlarını şərtləndirən motiv və səbəblərinin, zaman və məkanın, genetik fərdi-psixoloji amillərin elmi-psixoloji əsaslarını ortaya çıxarmaq;

– psixoloji romanlarda mövzu çoxşaxəliliyi, bədii konflikt yaratma və onun həlli məsələləri və s. kimi sənətkarlıq xüsusiyyətlərini müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın başlıca müddəa və nəticələrindən nəzəri baxımdan müasir türk ədəbiyyatı tarixinin, nəsr janrlarının, xüsusən roman janrı və formalarının təşəkkülü, təkamülü və inkişaf mərhələlərinin, psixologiya ilə ədəbiyyatın qarşılıqlı əlaqələrinin araşdırılması və yazılmasında istifadə oluna bilər. Təcrübi baxımdan tədqiqat işindən ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrinin tələbələri üçün dərslik və dərs vəsaitlərinin yazılmasında, fənn proqramlarının tərtibində, seçmə kurs mühazirələrinin hazırlanması və tədrisində faydalanmaq mümkündür.

**İşin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, nəzəri müddəa və nəticələri dissertantın mövzu ilə əlaqədar Respublikamızda və xaricdə nəşr etdirdiyi kitab və elmi məqalələrində, Beynəlxalq və yerli elmi konfranslardakı məruzə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq paraqraflara bölünmüş üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də tədqiq edilən mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, mövzunun tədqiq tarixi, məqsəd və vəzifələri, metodoloji və nəzəri əsasları, elmi yeniliyi, irəli sürülən başlıca elmi-nəzəri müddəalar, işin nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

I fəsil **"Türk ədəbiyyatında psixoloji romanın təşəkkülü"** adlanır. Fəslin **"Psixoloji motivlərlə zəngin ilk türk romanları"** adlı birinci yarımfəslində türk romanının təşəkkülü prosesi, roman janrının macəra, tarixi, məhəbbət, psixoloji, sosial, fəlsəfi, reportaj, fantastik, detektiv, bioqrafik və s. kimi formaları təhlil olunur. Psixoloji romanın əsas xüsusiyyətləri araşdırılır, dünya və türk ədəbiyyatının psixoloji romanlarından bəhs olunur. Türk psixoloji romanının sosial-psixoloji, lirik-psixoloji və fəlsəfi-psixoloji kimi formaları müəyyənləşdirilir.

Psixoloji romanın ən mühüm məziyyətlərinin bu əsərlərdə ideya məzmunu və süjet xətti ilə yanaşı, qəhramanların mənəvi-ruhi aləminə, psixoloji halətinə və bu vəziyyətin obrazların danışıq, davranış, hərəkət və fəaliyyətinə təsiri olması qeyd edilir. Bəzi romanlarda psixoloji təsvirlər hadisələr vasitəsi ilə göstərilərkən, bəzilərində elmi-psixoloji əsaslarla əks etdirmə, tibbi terminlər, xəstəliklərin izahı üstünlük təşkil edir. Məsələn, Rəşad Nurinin "Mərhəmət" ("Acımak") romanında qəhramanların mənəvi dünyası əks etdirilərkən, Peyami Safanın "Yalnızıq", "Şimşək", "Madumuazel Noralyanın kreslosu" ("Matmazel Noralya`nın Koltuğu"), Azra Kohenin "Fi", "Çi", "Pi" və s. kimi romanlarda tibbi termin bolluğu, psixoloji xəstəliklərin izah və şərhinə geniş yer verilir. R.Uellekin fikincə, psixoloji romanlar Freydin psixo-analiz ənənəsindən sonra ortaya çıxmışdır. Psixoloji romanlarla bağlı türk ədəbiyyatşünası Bərna Moran yazır ki, "Şüur altında ancaq fikirlər, düşüncələr yox, ən xırda detallar da böyük əhəmiyyət daşıyır. Bunlar şüurun ən gizli nöqtəsidir".[1]

Psixoloji romanın formalarından olan sosial-psixoloji romanlar əslində sosial mühitdən bəhs etdiyi üçün sosial roman sayılır. Ancaq bəzi romanlar sosial mühitin psixoloji vəziyyətindən bəhs etdiyi üçün sosial roman sayılmışdır. Bütün dövrlərdə yazıçılar cəmiyyətin sosial vəziyyətini psixoloji təsvirlər, monoloq və dialoqlar vasitəsi ilə əks etdirmişlər. Xalid Ziyanın "Qadağan eşq", Namiq Kamalın "İntibah", S.Səzainin "Sərgüzəşt", Nəbizadə Nazimin "Zəhra" romanlarının aparıcı xətti sosial-psixoloji motivlərdir.

Lirik-psixoloji romanlarda lirik üslub, insan psixologiyasının daxili monoloqlarla təqdimatı, məhəbbət motivləri, mənəvi aləmin təlatümlərinin inikası üstünlük təşkil edir. Bu romanların ilkin nümunələrinə müasir tipli

[1].Moran Berna. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İletişim,1982, s.64

türk nəsrinin formalaşdığı XIX əsrin 70-90-cı illərində qələmə alınan əsərlərdə rast gəlmək mümkündür. Lakin lirik-psixoloji romanın özünütəsdiq dönəmi XX əsrin I rübündə Rəşad Nurinin roman yaradıcılığı ilə başlayır. Psixoloji romanın formalarından biri də fəlsəfi-psixoloji romandır. Bu əsərlərdə ədəbiyyat və fəlsəfə arasındakı əlaqələr həm həyat fəlsəfəsi mənasında, həm də ümumi fəlsəfi düşüncələr mənasında başa düşülməlidir. Bu romanlarda fəlsəfi düşüncələr yazıçı təhkiyəsi ilə bərabər, obrazların mükalimələri, şüur axını, daxili monoloqlar vasitəsi ilə əks etdirilir. Fəlsəfi-psixoloji romanın banilərindən olan Peyami Safa bu janrın güclü nümunələrini yaratmışdır. Türkiyə ədəbiyyatşünaslığında bu günə qədər səngimək bilməyən ədəbi polemikalardan biri türk nəsrində ilk psixoloji romanın hansı əsər olması məsələsidir.

I fəslin ikinci yarımfəsli **"İlk sosial-psixoloji roman – Məhməd Raufun "Sentyabr" əsəri"** adlanır. Fikrimizcə, türk ədəbiyyatında müasir mənada psixoloji romanın tələblərinə cavab verən ilk nümunə Məhməd Raufun "Sentyabr" əsəridir. Roman, fədakar və ərini sevən bir qadının bir müddət sonra düşdüyü boşluğun, bu boşluqda həyat yoldaşının ən yaxın dostundan gördüyü sevgiyə qarşılıq onda eyni hisslərin baş qaldırmasının, bu duyğuları dərk etməyə başladığı andan etibarən keçirdiyi mənəvi-psixoloji böhranın bədii-estetik təqdimatıdır.

"Sərvəti-fünun" jurnalında 1900-cu ildə nəşr olunan "Eylül" romanında iki gəncin – Nəcib və Suadın ruh portretləri, daxili aləmləri uğurla qələmə alınmışdır. Məhməd Rauf romanda hadisələrdən çox, qəhrəmanlarının daxili dünyalarının inikasına üstünlük vermişdir. Romanın başlıca ideya-məzmunu "Qadağan eşq"də olduğu kimi, cəmiyyət tərəfindən qəbul edilməyən "qadağan olunmuş sevgi"dir.

Əsərin ilk psixoloji roman olduğuna dair Kənan Akyüz, Zeynəb Kərman, Ramazan Qorxmaz kimi müəlliflərin dəyərli fikirləri vardır. Əsərin ilk psixoloji roman olması ilə bağlı Cövdət Qüdrət demişdir: "Eylül" bir ruh çözümü romanıdır. Edebiyatımızda, bu yolda yazılmış eserlerin başarılı ilk örneği sayılmaktadır. Vakası yok denecek kadar basittir. Anlatılan birkaç olayın kişiler üzerindeki etkisiyle, kişilerin o olaylara karşı tepkisi üzerinde durulmuş; böylece, eser, dış olaylar üzerine değil, iç olaylar üzerine kurulmuştur".[1]

---

[1]Kudret Cevdet. Türk Edebiyatında Hikaye ve Roman 1. (1959-1910 Tanzimat Dönemi). İstanbul. 2004. s.270.

Roman beş ildir evli olan Suadla Sürəyyanın söhbəti ilə başlayır. Bir övladlarının doğulub ölməsi hadisəsi Suadın psixoloji baxımdan çox ciddi sarsıntı keçirməyinə səbəb olur. Onlar Sürəyyanın ailəsi ilə birgə yaşayır. Çoxsaylı ailə üzvlərinin yaşadığı bu evə Sürəyyanın yaxın dostu və bibisi oğlu Nəcib tez-tez gəlir. Qələbəlik ailə üzvləri ilə birgə yaşamaqdan narahat olan Sürəyya vaxt keçdikcə daha da çox sıxılmağa başlayır. O, həyat yoldaşı ilə başqa evdə yaşamaq istəsə də, atasının despotizmi və maddi sıxıntı buna imkan vermir. Həyat yoldaşının yaşadıqları evdə xoşbəxt olmadığını görən Suad atasından pul istəyərək Sürəyyanın təzə ev tutmasına maddi kömək edir. Dənizi çox sevən, yeni evə köçdükdən sonra daim sahildə, balıqçı məclislərində vaxt keçirən Sürrəyya ilə həyat yoldaşı arasında boşluq bundan sonra başlayır. Sürəyya qayıq alaraq tez-tez balıq tutmağa gedir. Dəniz tutduğu üçün əri ilə birgə gedə bilməyən, evdə tək qalan, vaxtını piano çalaraq, müsiqi dinləyərək keçirən Suad ərinin yaxın dostu ilə daha çox vaxt keçirməyə başlayır. Əslində, evlənməkdən, ailə həyatından xeyli uzaq olan Nəcib dostu Sürəyyanın həyat yoldaşına qarşı ciddi hörmət bəsləyir. Suadın xanımlığına, zərifliyinə vaxt keçdikcə daha çox heyran olan Nəcib, qadına heyranlığına baxmayaraq dostuna xəyanət etmək barəsində düşünmür.Gizli sevgi ilə Nəcibi sevən Suad da öz hisslərini ona açmır. Suad və Nəcibin hisslərini qabartmaqla yanaşı, dosta və həyat yoldaşına olan sədaqət hissinin sevgi hissi ilə təzadını güclü formada təsvir edən yazıçı, dövrün aktual mövzularından sayılan olan qadağan eşq mövzusuna fərqli aspektdən yanaşmışdır. Bir-birlərinə olan sevgilərini qəlblərində yaşayan Suad və Nəcib zaman keçdikcə psixoloji baxımdan depressiyaya uğrayırlar. Xəstələnməzdən əvvəl Suadın əlcəyinin bir tayını oğurlayıb onunla təsəlli tapan Nəcib öz hisslərinə qalib gələ bilməyərək dərddən yatağa düşür. Simvolikadan istifadə edən yazıçı əlcəyi Suadın əli, özü kimi təqdim edir. Evdə heç kimin olmadığı bir gündə Suadın o vaxtlar dəb olan tül əlcəyinin bir tayı itir. Sürəyyanı öz doğma qardaşı qədər çox istəyən, Suada hörmət edən Nəcib əlcəyi tapır, onu sahibinə vermək əvəzinə özündə saxlayır (bir növ əşyanın fetişləşdirilməsi hadisəsi baş verir). Bu hadisədən sonra onun daxilində təzadlar başlayır. Digər tərəfdən, itirdiyi əlcəyin tayını Nəcibin çarpayısında, yastığının yanında görən Suad bir də onun üzünə baxa bilməyəcəyini fikirləşir. Psixologiya elmində əlcək cinsi əşyalardan biri hesab olunur. Əsərdə əllərlə bağlı müxtəlif epizodlar mövcuddur. Nəcib piano çalan Suadın əllərinin gözəlliyinə vurulur, ona eşqini etiraf etdikdə əllərini öpür. Bütün bunlar psixologiya elmində cinsi istək kimi şərh edilir.

Nəcib xəstə yatarkən, Suad əlcəyin tayını gördükdən sonra bir-birlərinə olan hisslərini etiraf edən aşiqlər yaxınlaşmaq əvəzinə, bir-birlərindən uzaqlaşmağa çalışırlar. Uzaqlaşmaq qərarı onları bir-birlərinə daha çox yaxınlaşdırır. Bu qərarla daha çox depressiyaya girən Suad evdə baş verən yanğın zamanı özünün qurtarılmasını istəmir, bilə-bilə özünü ölümə tərk edir. Sevdiyi qadının həyatını təhlükədə hiss edən Nəcib tərəddüd etmədən onu xilas etmək üçün özünü alovların içinə atır. Və hər ikisi yanan divar altında qalaraq həlak olurlar.

Romandakı psixoloji məqamlar - qəhrəmanların danışıq, davranış və hərəkətlərini, mükalimələrini, daxili monoloqlarını, təhtəlşüur düşüncələrini əsaslandıran psixoloji situasiyalar, motivlər mükəmməl işlənmişdir. Məsələn, ailəsi ilə yaşadıqları evdən həyat yoldaşı ilə təzə evə köçən Sürəyya evə az gələrək dəniz kənarında daha çox vaxt keçirdikcə həyat yoldaşının öz yaxın dostuna yaxınlaşmasına daha çox şərait yaradır. Uşağını itirən Suadın övladını itirdikdən sonra matəm saxlaması, yenidən ana olmağa qarşı fobyası olduğunu təsvir edən yazıçı həm yaratdığı qəhramanın psixoloji baxımdan böhranını oxucuya çatdıraraq əsərin doğurdan da psixoloji roman olduğunu göstərir, həm də əxlaqi dəyərlərin, ailə, ana-ölad və s. kimi ənənəvi və instinkt əks etdirən hisslərin müqəddəsliyini çatdırmağa çalışmışdır. Zahirən zərif, incə görünüşə sahib olan, piano çalan, gözəl müsiqi duyumu olan Suad güclü qadındır. O, əri ilə yeni həyat qurmağa cəhd edir, başqa birinə aşiq olduqda isə hisslərini qəlbində uzun müddət boğur, sevdiyi adam etiraf etdikdə isə ərinə fiziki xəyanət etmir.

Suad yanğın hadisəsi zamanı içəridə qalanda Sürəyya ancaq "Suad! Suad!" deyə ağlamaqla kifayətlənir. Nəcib isə heç nə fikirləşmədən özünü içəri atır. Psixoloji baxımdan Nəciblə Sürəyyanın yanğına verdikləri fərqli reaksiya müxtəlif formada təhlil edilə bilər. İlk baxışda, Sürəyyanın ancaq "Suad!" deyə ağlaması, həyat yoldaşını xilas etmək üçün heç cür cəhd etməməsi onun evlilik həyatından bezməsi kimi də təhlil oluna bilər. Şüuraltı ailə həyatından bezən Sürəyya özünü azad hiss etmək üçün dəniz sahilində gəzərək, qayıqla səyahət edərək vaxt keçirir. O, eyni zamanda bu məşğuliyyətlərlə ailə həyatından, məsuliyyətdən də qaçır. Şüuraltında müxtəlif şeylərdən narahatlığı olan insanın ailə həyatından xilas olmaq üçün ölümə tez təslim olması da psixoloji motiv hesab edilə bilər.

Diqqət çəkən digər psixoloji faktorlardan biri də Nəcibin Suadı hamıya qısqanması, ancaq Sürəyyanın Suadı heç vəchlə qısqanmaması məsələsidir. Həyatında çox qadın olan, qadınlara qarşı inamsızlığı olan Nəcib Suadı ən ali yerə qoysa da, onun saflığına vurulsa da şüuraltı daim

şübhə içərsindədir. Suadı sevdiyi üçün qısqanırmış kimi özünü göstərsə də, əslində, o sevdiyi qadının saflığının saxta olduğunu düşünür. Uşaqlıqdan atasının despotizmindən, özünə inamının zəifliyindən əziyyət çəkən Süreyya isə həyat yoldaşını heç cür qısqanmır. Psixoloji baxımdan onun bu vəziyyətini təzyiqdən bezən, buna görə də hisslərindən, daxili böhranlarından qaçan biri kimi şərh etmək olar.

Əvvəllər əyləncə həyatından zövq alan Nəcib Suada aşiq olduqdan sonra əyləncə həyatından iyrənməyə, uzaqlaşmağa başlayır. Əslində, əyləncə həyatında saxta, dayaz düşüncəli insanlardan şüuraltı bezən Nəcib Suad və Sürəyyanın həyatını müşahidə etdikdən sonra onların arasındakı münasibətə heyran olur. Qadınlara qarşı inamsızlığı olan Nəcib Suadı gördükdən sonra ona vurulur.

Ərinə xəyanət etməyən, sevgisi platoniklikdən kənara çıxmayan Suad mənəvi-psixoloji baxımdan ona xəyanət edir. O keçirdiyi hissləri ərinə etiraf etmir, Sürəyyadan boşanmır. Əsərdə mənəviyyat baxımdan evlilik psixologiyası, bir-birindən fərqlənən insanların birlikdə xoşbəxt olmağa çalışması, ancaq əslində, xoşbəxt olmadığı, aşiq qadının yaşadığı boşluq və qadağaların məngənəsində keçirdiyi depressiya əks olunmuşdur.

Dissertasiyanın **"XX əsr türk nəsrində psixoloji romanın iki istiqaməti"** adlanan II fəsli iki bölmədən ibarətdir. İkinci fəslin birinci yarımfəsli **"Lirik-psixoloji roman ustadı Rəşad Nuri Güntəkin"** adlanır.

Burada qeyd edilir ki, yazıçının romanlarında xarici aləmin təsvirindən daxili aləmin açılması üçün istifadə olunur. Xarici aləmin – sifət cizgilərinin, mimikanın təsviri, qəhrəmanın keçirdiyi hisslərin və onun xarakterinin təyin olunmasına yol açır. Düşünə bilən, özünü təhlil edən insanlar cəmiyyətdə həmişə digərlərindən seçilə bilən insanlardır. Axıcılığı ilə sevilən Rəşad Nuri romanlarında gizli məqsədlər, iyrənc hisslər hakim olmamışdır. Yazıçı öz qəhrəmanlarını yanlışı olsa belə, elə təqdim etmişdir ki, oxucu qəhrəmanın hisslərini, hərəkətlərini və baş verən vəziyyətlərdəki rolunu yadırğamamış, olduğu kimi qəbul etməyə çalışmışdır. O, yaratdığı obrazların iç aləmini hadisələr və psixoloji təsvirlərlə daha da aydın açıqlamışdır. Onun "Çalıquşu", "Qadın düşməni","Dodaqdan qəlbə", "Axşam günəşi" ("Akşam Güneşi"), "Mərhəmət", "Qan düşmənçiliyi" ("Kan Davası"),"Yaşıl gecə" ("Yeşil Gece") və s. əsərlərində insan qəlbinin təkliyi nəticəsində mənəvi sarsıntılar keçirən qəhrəmanlar iştirak edirlər. Bu qəhrəmanlar özləri özləri ilə mübarizə aparan, bu təklik nəticəsində ya tamamilə məhv olan, ya da məğlub olan obrazlardır. Əslində, Rəşad Nurinin qəhrəmanlarını mənəvi təkliyə sövq edən də

yaşadıqları cəmiyyət idi. Yazıçı cəmiyyətdəki problemləri, bunların insanlara təsirini öz obrazlarının iç dünyası vasitəsi ilə göstərmişdir.

Bədii əsərlərdə çox vaxt sosial problemlər birbaşa qəhrəmanın vasitəsi ilə təsvir edilir. Psixoloji vəziyyətlərdən istifadə olunmur. Öz dövründə yazılan romanlardan fərqli olaraq Rəşad Nuri sosial problemləri qəhrəmanlarının ruh aləmi, psixoloji dünyası vasitəsi ilə açmağa çalışmışdır.

Rəşad Nuri romanlarında yaradılmış qəhrəmanların xarici təsvirindən daha çox, daxili təsvirlərinə yer verilmişdir. Müasir dövrdə yaradılmış ensiklopediyalarda Rəşad Nuri romanları haqqında söylənilən fikirlər arasında bu fikri xüsusi qeyd etməliyik: "... Çoğunlukla erkek olan kahramanları, dış görünümlerindən çok, psikolojik özellikleriyle işlenen ve genellikle iyi-kötü, idealist-çıkarcı, tutucu-yenilikçi gibi karşıtlıklar içinde verilen tek boyutlu karakterlerdir."[1]

Xarakter, cəmiyyət içərisində qazanılan və cəmiyyət tərəfindən qiymətləndirilən psixi halət olsa da yazıçının roman qəhrəmanlarını təsəvvür edərkən bu fikirlər arasında təzadda qalırıq. Bütün cəmiyyətə qadın düşməni kimi tanınan Ziyanı ("Qadın düşməni"), oğru kimi qəbul edilən İffəti ("Damğa" "Damga"), çılğın kimi tanınan Fəridəni ("Çalıquşu"), qızı tərəfindən tanınmayan Mürşidi ("Mərhəmət") oxuyub, təsəvvür etdikdən sonra onların əsl dünyalarının iç dünyalarında gizləndiyini, xarakterlərinin real dünyada doğru tanınmadığını görürük.

Rəşad Nurinin mənfi xüsusiyyətləri ilə seçilən qəhrəmanlarının bu məziyyətləri daşımasına da cəmiyyət səbəb olmuşdur. "Çalıquşu"nun Kamranındakı səhvlər, "Dodaqdan qəlbə"nin Kənanındakı, "Mərhəmət"in Zəhrasındakı, "Qadın düşmə"nin Sarasındakı yanlışlıqlar cəmiyyətdən qaynaqlanmaqda idi.

Rəşad Nuri Fəridənin hisslərini bütün dərinlikləri ilə qələmə aldığı üçün bunu söyləmək bir o qədər də həqiqətə uyğun deyil. Cəmiyyətə özünü fərqli tanıdan Fəridə əslində gündəliyində oxuculara iç dünyasını bütün təfərrüatı və incəlikləri ilə təqdim etmişdi. Öz prinsipləri olan, şərəf və qürurunu çox sevən, duyduğu hissləri bəslədiyi insana belə alçaltmayan Fəridə nəyi və necə müdafiə edə bilərdi? Heç nəyi! Çünki Fəridə ilə Kamranın arasına yalan, xəyanət,

---

[1]Büyük Larousse, Sözlük ve Ansiklopedisi, 17 cilt, İstanbul: Milliyet Yayınları, 1986, s. 238

vəfasızlıq girmişdi.Nə üçün Rəşad Nuri romanlarında daxili monoloqdan istifadə edirdi? Bu suala belə cavab tapa bilərik. İkili fikir, təsəvvür və anlayışların əhatələndirdiyi Rəşad Nuri qəhrəmanları, çox vaxt ya özü ilə, ya da başqaları ilə daimi mübahisə edirdi. Bu da yazıçının üslubunda daxili monoloqun ortaya çıxmasına gətirib çıxarırdı. Deməli, daxili monoloqun da ortaya çıxmasına səbəb yazıçının qəhrəmanlarının ruh aləmi olmuşdur.

Yazıçının "Son sığıncaq" ("Son Sığınak") romanında Süleymanın , psixiatrlarının açıq meydanlardan qaçan xəstələrin düçar olduğu xəstəliyə "Aqora fobi" adını verməsi, yazıçının psixi xəstəliklərdən də xəbərdar olmasını göstərirdi.[1]

Rəşad Nurinin nəsr əsərlərinin dilində, xüsusən öz dövrünün aktual problemləri mənəvi və ictimai tələblər baxımından bədii ustalıqla təsvir etdiyi hər bir obrazın xarakterində görünür.

II fəslinin ikinci bölməsi **"Fəlsəfi-psixoloji romançı Peyami Safa"** adlanır. Qeyd edilir ki, türk ədəbiyyatında fəlsəfi-psixoloji romanlar çox olsa da, bu romanların ən möhtəşəmi, psixoloji romanın bu nisbətən gec inkişaf etmiş formasının banilərindən biri Peyami Safanın qələmindən çıxmış "Doqquzuncu ümumi cərrahi xəstəliklər palatası" əsəridir. Bu, heç də təsadüfi deyildi. Belə ki, ədibin bu romanı avtobioqrafik səciyyə daşıyır. Romanda oynaq iltihabı xəstəliyindən əziyyət çəkən adsız qəhrəman Peyami Safanın özüdür.

Yaratdığı obrazlar vasitəsilə demək olar ki, psixologiya elminin bir çox şöbələrini izah edən Peyami Safanın məqsədi əslində, ideal obraz yaratmaq deyildi. İdeal insanı günahkar insan vasitəsilə də meydana çıxarmaq iqtidarına sahib olan yazıçı yaratdığı obrazları psixoloji baxımdan zəngin işləmiş, obrazların bəzilərini altıncı hissin köməyilə fərqli vəziyyətlərdə, fərqli çərçivələr içərisində təsvir etmişdir. Dərin, psixoloji – bədii əsaslara söykənən romanlarında musiqi, tarix, incəsənət, din, siyasət, sosiologiya, fəlsəfə, fizika, tibb, insan fiziologiyası və s. kimi elmlərdən bəhs etmişdir.

Peyami Safanın əsərlərinin anlaşılmasında çətinliyinə yol açan səbəblərdən biri də onun istifadə etdiyi və əksəriyyəti xarici dillərdən

---

[1]Güntekin Reşat Nuri. Son Sığınak. İstanbul: İnkilap kitapevi, 1995, s.13

alınma fəlsəfi-psixoloji terminlər olmuşdur. Məsələn; sürmönaj (zehin yorğunluğu), hyperreaction (fiziki reaksiya), psychodrame (rola girərək həyat sürmək, özünü səhnədəki kimi hiss etmək), Hysterique (isteriya). (sadalananlar Peyami Safanın "Yalnızıq" əsərindən götürülmüşdür).

Bütün bunları yazıçı izahlı şəkildə də verə və ya türk dilində qarşılığını göstərə bilərdi. Hər halda, Peyami Safanın terminlərində olduğu kimi istifadə etməsinə səbəb, onun əsərlərinin sırf ədəbi nümunə olmaması olmuşdur. Bu əsərlər həm ədəbi, həm də elmi əsasların göstəricisi idi. Onun əsərləri ədəbi-bədii nümunə olmaqla bərabər, geniş mənada həm də elmin - tibb, psixologiya, fəlsəfə tarixi, siyasət, din, politologiya, sosialogiya və s. elmlərin daşıyıcısı idi. İnsan psixologiyasının sağlam və qeyri-sağlam cəhətlərini obrazlar və hadisələr vasitəsi ilə oxucuya çatdıran Peyami Safa öz həyat təcrübəsi və dərin zəkasının köməyi ilə söz açılan əsərləri meydana gətirmişdir.

Peyami Safanın romanlarında tibbi və psixoloji məqamların peşəkarlıqla işləndiyinə diqqəti çəkən İsmayıl Həbib Sevük yazırdı: "Fizyoloji ve psikolojinin elele verdiği hastalık ve marez tahlili romanları ki, freng edebiyatında böyle romanların kıymetlerini tıp fakültelerinde bile talebenin istifadesi için okutuyorlar" .[1]

Peyami Safa "Yalnızıq" romanında bütün xəstəliklərin əvvəlcə psixoloji hissədə – ruhda başladığını göstərmişdir. Onun fikrincə, bakterial xəstəlikləri törədən də insan psixologiyasıdır.

Peyami Safa qəhrəmanlarının çoxusu həyat hadisələri nəticəsində isteriya xəstəliyinə tutulmuş, psixi, hissi dünyaları zəif olan, nəticədə də hallüsinasiya (xəyal görmə) görən insanlardır.

Hissləri oyaq olan bu şəxslər telepatya ilə bir çox hadisələri hiss etmək iqtidarına malikdirlər ("Yalnızıq"da Rənginaz, Nəcilə, "Madumazel Noraliyanın kreslosu"nda Zəhra, "Şimşək"də Müfid və s.). Şüur, şüuraltı və şüursuzluq mövzusuna toxunan Peyami Safa, romanlarında yaratdığı qəhrəmanlar vasitəsi ilə bu mövzuya da açıqlıq gətirməyə çalışmışdır.

Bu yarımfəsildə Peyami Safanın davamçılarından hesab edilən Sait Faiq Abasıyanıqın "Bir qrup insanlar", "İtgin axtarılır" kimi əsərləri də təhlil edilmişdir.

[1]Göze Ergun. Peyami Safa Nazim Himet Kavgası. İstanbul: Boğaziçi Yayınları, 1995. s. 358

**“Türk romanında psixologizm (1960-2000-ci illər)”** adlı III fəsil də iki bölmədən ibarətdir. Birinci yarımfəsildə **“Modernist-ekzistensialist təmayül və psixoloji roman yaradıcılığı”** təhlilə cəlb edilir.

Qeyd olunur ki, türk nəsrində 50-ci illərin ortalarında ədəbiyyata gələn və “Mavi” jurnalı ətrafında birləşən bir qrup gənc (Orxan Duru, Fərid Edgü, Özdəmir Nutku və s.) dövrün aparıcı bədii yaradıcılıq metodu olan realizm estetikasına qarşı yeni “həqiqi realizm” ideyasını önə sürdülər. Bu yazıçılara görə, bədii ədəbiyyat sosioloq və politoloqların maraq dairəsində olan ictimai məsələlərlə məşğul olmamalıdır. Sənətkarın işi fərdin daxili dünyası, mənəvi problemlərinin bədii inikasıdır. 60-cı illərin əvvəllərində - ölkədə baş verən hərbi çevrilişdən (27 may 1960-cı il) sonra meydana gələn ictimai-siyasi vəziyyət və mənəvi-ideoloji böhran sözügedən təmayülün nümayəndələrini (sonralar bu təmayülə Leyla Ərbil, Nəcati Tosunər, Lətifə Təkin, Dəmir Özlü, Yusif Atılqan, Səlim İrəli, Vüsət Benər, Bilgə Qarasu, Onat Qutlar və s. kimi tanımış yazıçılar da qoşuldular) Qərbin modernist-ekzistensialist nəsrinə (Frans Kafka, Alber Kamyu, Jan-Pol Sartr, Simona de Bovuar və s.) doğru istiqamətləndirdi.Türk ədəbiyyatşünasları bu ədəbi təmayülə “bunalım ədəbiyyatı” (“depressiya, böhran ədəbiyyatı”) adını veririlər. Psixologiyada “depressiya” məfhumu bir şəxsi itirdikdən və ya həyatdakı müxtəlif uğursuzluqlardan sonra ortaya çıxan kədər, yorğunluq və s. kimi hisslərin ağuşunda çırpınan insanların düşdüyü durum əks etdirir. Bunalım ədəbiyyatı faktoru psixoloji ədəbiyyatın müəyyən mərhələsini əhatə edən ədəbiyyat sayılır. 50-ci illərin ortalarında türk ədəbiyyatında Cənubi Amerikada yaradılmış modernizm cərəyanının qaydalarını mənimsəyən və Qərbin həm fəlsəfi, həm də ədəbi ideologiyasının təsiri altında olan bir qrup sənətkar əsərlər yazmağa  başlamışlar. Depressiyadakı qəhrəmanlar keçirdikləri böhrana görə yaşadıqları mühitdə insanlarla münasibət problemləri yaşamış, buna görə də özlərini cəmiyyətdən təcrid etməyə başlamışlar.Böhran keçirən qəhrəmanlar itirməkdən meydana çıxan hisslə deprresiyaya məruz qalmışlar. Ziqmund Freyd itirmək və depressiyanın, böhranın arasında əlaqə olduğunu qeyd etmiş, müxtəlif itkilərlə insanın eqosunun zədələdiyini, buna görə də özünə qapandığını qeyd etmişdir.[1]

Türk modernist ədəbiyyatı müəyyən xətt çərçivəsində mövcud olmuşdur. Bu cərəyan sosial  faktların nəticəsində ortaya çıxmış və yazıçılar arasında olan mənəvi böhranları əks etdirir. Mərhələnin “bunalım”

---

[1]Freud Sigmund. Psikoanalize Giriş Dersleri. İstanbul: Öteki Yn., 2016, s.123

adı ilə qeyd olunması bunun sübutudur. “Bunalım” həm çətinlik, həm əzilmək, həmdə təqibdə olmaq, psixoloji baxımdan təhlükədə olmaq mənasını ifadə edir.

Mərhələnin uğur qazanmasına səbəb 50-60-cı illərdəki Türkiyədə baş verən siyasi böhranlar olmuşdur. 60-cı ildə baş verən böhrandan sonra yeni mərhələyə, yəni bunalım ədəbi cərəyanına şərait yarandı. Baş verən böhranlar yazıçılarda məhşur psixoloq, psixiatr Z. Freydin yaratdığı konsepsiyalara maraq oyatmışdır.

50-ci illərdə yazıb yaradan yazıçılar ölkədə və dünyada baş verən hadisələrə görə öz daxili dünyalarına sığınmış, keçirdikləri böhranları, psxiloloji vəziyyətləri əks etdirmişlər. Ekzistensializm cərəyanının ilk təmsilçiləri Fərid Edgü və Dəmir Özlüdür. Fərid Edgü ilk təmsilçilərdəndir. O, eyni zamanda 50-ci illərdə “Bunalım” ədəbiyyatının yaradıcısı olmuşdur. Əvvəlcə rəssamlıq təhsili alan, daha sonra bir müddət Fransada fəlsəfə təhsili alan və bu müddətdə də dünya ədəbiyyatını, ədəbi cərəyanları mənimsəyən yazıçı yaradıcılığında öyrəndiklərini tədqiq etməyə çalışmışdır. Yazıçının “Yaralı zaman” romanında İraq hadisələrindən qaçan insanların keçirdikləri sarsıntılardan, müharibənin bu insanlara verdiyi zərərdən təsirlənən  Fərid Edgünün öz hislərindən bəhs olunmuşdur.

Ekzistensializm cərəyanının və bunalım ədəbiyyatının ilk təmsilçilərindən biri olan Dəmir Özlünün tədqiqat mövzumuz olmasa da “Bulantı” adlı hekayə kitabı “Bunalım” ədəbiyyatının ilk nümunəsi olmaqla yanaşı Sartrenin eyni adlı kitabından təsirlənmişdir.Yazıçı əsərdə ayrı-ayrı fərdlərin keçirdiyi psixoloji sarsıntıları əks etdirmişdir. Yazıçının eyni zamanda “Nəfəs” (“Soluma”) adlı hekayə kitabında da “Bulantı” da olduğu kimi fərdlərin böhranından bəhs etmişdir.Yazıçı “Bir uzun payız” (“Bir uzun Sonbahar”) adlı romanında intihar mövzusunu əks etdirmişdir.

“Bunalım” ədəbiyyatının nümyəndələri eyni zamanda özünü dünyada tapa bilməyən yaradılışını təhlil edən obrazları əks etdirmişdir. “Bunalım” ədəbiyyatının nümayəndələri öz romanlarında obrazların absurd xüsusiyyətlərini qabartmağa çalışmışlar. Hadisə və əhvalatlara uzun müddətli yox, içində yaşadıqları ana və mühitə görə reaksiya verən obrazlar daim sıxıntı, böhran, ruhi təlatüm və tənhalıq keçirir. Təsadüfi deyildir ki, “Bunalım” ədəbiyyatı nümunələrində ən çox istifadə edilən mövzulardan biri də ölüm və intihar mövzusudur. Böhran keçirən obrazlar tənhalıqdan və insanlardan qaçaraq intihara yönəlir.

50-ci illərin digər psixoloji romanlarından biri də, Orxan Xəncərlioğlunun “Oyun” (“Oyun”) romanıdır. İstanbulda iyirmi il məmur işləyən Həlim, məruz qaldığı haqsızlıqlar və problemlərə görə depressiyaya

girir. Psixoloji baxımdan sarsılan qəhraman psixologiya elmində şizofreniya xəstəliyinin xüsusiyyətlərindən hesab edilən xəyal dünyasında yaşamağa başlayır. Bir müddət xəyal dünyasında yaşayan Həlim xəyal aləmindən arzuladığı vəzifəyə başqası keçdikdə oyanır. Xəyalında olduğu vəzifəni də itirdikən sonra tamamı ilə depressiyaya girən Həlim evində intihar edir.

1974-1976-cı illər arasında Almaniyada yaşayan Necati Tosunər, hekayə yazıçısı kimi tanınsa da, xaricidə yaşadığı müddətdəki müşahidəsini 1977-ci ildə "Ağrı... ağrı"("Sancı...sancı") romanında əks etdirmişdir. Əsər 1978-ci ildə Türk dil qurumunun təşkil etdiyi roman mükafatını qazanmışdır. Romanda Almaniyadakı türk miqrantların ailə, sevgi həyatından bəhs olunur. Müxtəlif böhranların, problemlərin əks olunduğu romanda bütn obrazları birləşdirən məsələnin Almaniyada miqrant kimi yaşamaq, fəhla həyatı olduğunu göstərən yazıçı donqar Osman obrazı vasitəsi ilə fiziki qüsurlu insanın daxili təlatümlərini, keçirdiyi narahatçılığı göstərməyə çalışmışdır. Osman yaşamaq üçün müxtəlif işlərlə məşğul olur, qəzetpaylayan işləyir, oğurluq, dilənçilik edir. Tələbə olduğu üçün mütəmadi işləyəcəyi iş tapa bilmir. Əsərdə irqçilik məsələsinə də toxunan yazıçı Osmanın alman sevgilisi peranın ondan ayrılmaq səbəbi kimi türk olmasını göstərmişdir.

Həm keçirdiyi ağır psixoloji xəstəlik, həm də "Bunalım" ədəbiyyatının təsiri altında qalaraq hekayə və romanlar qələmə alan Tezər Özlü hekayə və romanlarında 50-ci illərdəki yazıçıların üslubunu davam etdirmiş, Ziqmund Freydin konsepsiyalarına uyğun hadisə və əhvalatlar, qəhramanlar yaratmışdır."Bunalım" ədəbiyyatının yaradıcılarından olan Dəmir Özlünün bacısı olan Təzər Özlü Avstriya qız liseyində oxumuş, daha sonra Avropa səyahətində Ədalət Ağaoğlunun qardaşı Sümər Günər ilə ailə qurmuş, üç illik ailə həyatından sonra həyat yoldaşının xəyanətinə, çox içki içməsinə görə boşansa da bu müddət onda psixoloji baxımdan ciddi sarsıntı keçirir. Bir müddət psixoloji müalicə alan Özlü ikinci dəfə evlənir. Həyat yoldaşını çox sevsə də, ailə həyatının onu ədəbiyyatdan uzaqlaşdırdığını düşünərək boşanır. İsveçrəli bir fotoqrafçı ilə tanış olub İsveçrəyə köçən yazıçı bir müddət sonra manik depressiyaya tutularaq xəstaxanada müalicə olunmağa başlayır. Xəstəliyə görə elektro şoklarla müalicə olan, həkimlərin yaratdığı travmaları heç cür unuda bilməyən yazıçının yaradıcılığında bütün bunların izlərini görmək mümkündür.

Yazıçının ilk romanı olan "Uşaqlığın soyuq gecələri" ("Çocukluğun Soğuk Geceleri") avtobiqorafik formadadır. Əsər yazıçının yaşadığı hadisə və əhvalatlar, depressiya və müalicə müddəti əks edilmiş, öz

həyatını “Onlar şakacı, özgür “beni” arıyor. Bulamıyor. Onların dünyasında iniş çıkışlar bu denli büyük değil. Onların dünyasında coşku delilik derecesine varmıyor.”[1] kimi cümlələrlə ifadə edərək “bunalım”ədəbiyyatının davamçılarından olduğunu bildirmişdir.

Bunalım ədəbiyyatının digər nümunələrindən biri də Çingiz Tuncərin “Yırtıcı quş” (“Kerkenez”) romanıdır. Dərin psixoloji təhlillərin mövcud olduğu əsərdə Salehin müxtəlif psixoloji problemləri əks olunmuşdur. Əsər kənd həyatını ancaq sosial baxımdan yox, eyni zamanda psixoloji baxımdan da əks etdirən əsərlərdən biridir.

Ədalət Ağaoğlunun “Ölməyə yatmaq” əsəri sosial təməlli “bunalımlar”ı əks etdirməsi baxımından ən yaxşı nümunələrindən biridir.

60-70-ci illərdə sosial inkişafın təsiri ilə “bunalım” ədəbiyyatının nümunələrini qələmə alan şəxslər daha konkret təsvirlər etmişlər. Sevgi Soysal, Ərdal Öz, Leyla Ərbil kimi istedadlı yazıçıların realist tərzdə qələmə aldıqları nümumələrdə modernist ab-havanın özünə yer tutması müşahidə olunmağa başlanmışdır. Leyla Ərblin əsərlərində bu daha çox müşahidə edilir. Bu dövr içində yazıçılar arasında yayılan sosialist fikirlər, yalnız realist yazıçıların əsərlərinin düşüncə və estetik baxımdan təsir etməklə kifayətlənmədi, eyni zamanda modernizmin böhranını daha da ağırlaşdırmışdır.Ərdal Özün “Yaralı” və Sevgi Soysalın “Şəfəq” adlı romanları, realist nəsrdə yeni bir cərəyanın, subyektiv-psixoloji cərəyanın meydana gəlməsində əhəmiyyətli rol oynadılar.

“Bunalım” ədəbiyyatının ən güclü romançısı hesab olunan Leyla Ərbilin “Ölü” (“Ölü”) əsərindəki baş qəhrəman yeni vəfat etmiş yaşlı və zəngin ərinin ardından ağlayan, amma ağlamasına baxmayaraq matəməuyğun olmayan qoxular və saç formaları kimi şeyləri dəyişdirən gənc və gözəl bir qadındır. Aydındır ki, “bunalım” ədəbiyyatını modernizmin təbii forması kimi qiymətləndirmək daha doğrudur. Leyla Ərbil özünə qədərki ədəbi ənənəyə sadiq qalmamış, psixoanalizdən istifadı edərək dinin, ailənin sosail mühitin yaratdığı çətinliklərə qarşı mübarizə aparan əsərlər qələmə almışdır.

Müasir psixologiya elminin müxtəlif sahələrinə bələd olmaq yaradılan qəhramanların daha real, daha dərin, inandırıcı əksinə şərait yaradır. Bununla da elmi əsaslarla təsvir edilən bu əsərlər oxucuda yeni fikrin formalaşmasına, onun məlumatlanmasına kömək edir. Oxucu elmi

---

[1]Özlü Tezer. Çocukluğun Soğuk Geceleri. Ankara: YKY, 2000, s.45

psixoloji qaynaqlar oxumaq yerinə eyni elmi müddəlar əsasında yaradılmış qəhramanı oxuyaraq bəhs edilən müddəanı daha yaxşı dərk edə bilir. Müasir romanların ən diqqət çəkən xüsusiyyətlərindən biri də böhran keçirən şəxslərin obraz kimi istifadəsi olmuşdur.

Dissertasiyanın bu hissəsində Kürşat Başarın "Başucumda musiqi" ("Başucumda Müzik"), "Sen olsaydın etməzdin, bilirəm" ("Sen Olsaydın Yapmazdın, biliyorum", Əhməd Altanın "Aldatmaq" ("Aldatmak"),"Ən uzun gecə" ("En Uzun Gece"), Əlif Şəfəqin "Eşq" ("Aşk"), "İsgəndər" ("İskender") və s. əsərlər təhlil edilərək qadın qəhramanların xəyanətləri, psixoloji baxımdan oxşar və fərqli cəhətləri təhlil edilmişdir. Oğuz Atayın "Dözə bilməyənlər" romanı da bu yarımfəsildə tədqiqata cəlb edilmişdir.

Burada Peyami Safanın, eləcə də bir çox türk yazıçısının psixoloji romanlarındakı intihar mövzusu geniş təhlil olunur. Həyatdan bezən, psixi problemlər yaşayan bu qəhrəmanlar intihar etməyi fikirləşsələr də, buna ya təşəbbüs göstərə bilməmişlər, ya da təşəbbüsləri boşa çıxmışdır. Məsələn, "Məhşər" ("Mahşer") romanının baş qəhrəmanı – Nihad intihar etməyi fikirləşmiş, bunu etmiş, ancaq xilas olmuşdur (O,özünü dənizə atmışdır). "Bir tərəddüdün romanı"ndakı Vildan, intihar etmək istəmiş, bunu etməmişdir. "Sözdə qızlar"da Bəlma (Xədicə) intihar etmişdir (Peyami Safanın bir tək bu qəhrəmanı intiharla həyatına son verə bilmişdir).

Əlif Şəfəqin "Əraf" ("Araf"), Kaan Arslanoğlunun "İntihar" ("İntihar"), Yusif Atılqanın "Anayurd oteli" (Anayurt Oteli"), Orxan Pamukun "Qar" ("Kar"), Buket Uzunərin "İki yaşıl su samurayı" ("İki Yeşil Susamurayı", romanlarının qəhrəmanları sanki psixoloji böhran keçirənlərin "hiç ölmeyecekmiş gibi tat al yaşamdan yarın ölecekmiş gibi umursama hiçbir şeyi"[1]düşüncəsiniözlərinə prinsip kimi qəbul ediblər. Məsələn, Buket Uzunərin "İki yaşıl su samurayı" əsərində də heç kəsə inanmayan Nilsunun uşaq yaşlarında vurulduğu müəllimi Mayklın sonrakı illərdə intiharı, Maykldan sonra tanış olub sevdiyi, anasına heyran, anasının intiharından sonra Nilsu ilə tanış olan Teomandan danışılır. Vüsət O. Benərin "Buz dövrünün virusu" ("Buzul Çağının Virusu"" romanında Osman Yaylagülün qəsəbədə yaşayarkən eyni evdə qaldığı şair Faiq də intihar etmişdir. Səlim İrəlinin "Qırıq dəniz qabuqları" ("Kırık Deniz Kabukları") romanında Xalid Ziya Uşaqlıgilin oğlu Vədadın həyatı və intiharı əks edilmişdir.

[1]Arslanoğlu Kaan. İntihar. İstanbul: İthaki Yayınları, 2005, s.183

Bu yarımfəsildə psixoloji travma alan obrazlar da ətraflı təhlil edilmişdir. Əlif Şəfəqin “Ata və bic” romanının təcavüzə məruz qalan Zəlihası, Zülfü Livanelinin “Xoşbəxtlik” (“Mutluluk”) əsərinin Məryəmi yaşadıqları hadisənin onlarda yaratdığı izlər, başlarına gələn facıəni xatırlama anlarının elmi- psixologiyaya əsaslanılaraq təsviri tədqiq edilmişdir.

Azra Kohenin “Fi”, “Çi”, “Pi” adlı seriya romanı Can Manay adlı məhşur psixoloqun əslində şizofren olduğu, keçmişdə psixiatrik xəstəxanada yatdığı, bunu ancaq öz həkimi və dostu Etidən başqa heçkəsin bilmədiyi, daha sonra jurnalist Özgənin öyrəndiyi bütün bunlara görə də Özgəyə müxtəlif problemlər yaşatmasından, Can Manayın obsesiv-komplusiv pozuntudan əziyyət çəkdiyi, Duru adlı balerin bir qıza görə hər şeyi gözə aldığını etəsvir etmişdir. Duru nişanlısı Dənizi sevir. Ancaq yazıçı Durunun qadınlıq instikti, eqo məsələlərini ustalıqla əks etdirərək onun eqosunun qrubanı olaraq Dənizə Can Manayla xəyanət etməsini,bir müddət Canla yaşadıqdan sonra əslində onun xəstə olduğunu, Dənizin onu bütün saflıqla sevdiyini dərk edərək peşman olmasını, Can Manaya qarşı hiss etdiyi nifrəti müxtəlif hadisələr vasitəsi ilə əks etdirmişdir. Əsərdə konfliktin meydana çıxması Can Manayın Durunu özünə hədəf seçməsi, onu əldə etməsidir. Əsərin sonunda Can Manayın Eti, Bilgə və Özgə tərəfindən psixatirik xəstəxanaya göndərilməsi təsvir olunmuş, yazıçı şizofrenik hisslərin, insan eqosunun insan dünyasındakı yeri məsələsini əks etdirərək konfliktin həllinə nail olmuşdur.

Obsesiv-komplusiv pozuntudan əziyyət çəkən digər obrazlardan biri də Orxan Pamukun “Məsumiyyət muzeyi” (“Masumiyet Müzesi”) romanındakı Kamaldır. O, illərlə eyni “takıntılı” formada, düz otuz il Füsunu sevir.

Ə.H.Tanpınar “Hüzur” (“Huzur”) romanında Mümtaz obrazının şizofreniya xəstəliyindən əziyyət çəkdiyini, hallusinasiya gördüyünü qeyd etmişdir. Mümtazın insanların çox olduğu küçədə gedərkən birinin bilə-bilə onu itələdiyini, qaçıb dar küçələrdən birinə girdiyini hiss etməsinin təsvirini verən yazıçı peşəkar şəkildə əslində obrazın hallusinasiya gördüyünün təsvirini yaratmışdır.

Uzman doktor Zeynəb Pınar məqaləsində hallusinasiyanın tərifini verərək yazır: “Halüsinasyon: Gerçekte var olmayan ses, görüntü, tat, koku ve dokunma hissinin algılanmasıdır.”[1] Bununla biz Tanpınarın şizofreniyaya nümunəni bədii təsvir vasitəsi ilə düzgün formada təsvir

[1]www.zeyneppinar.com/psikoz-ve-sizofreni

etmişdir.Azra Kohenin "Fi" romanında psixoloq Canın xəstə terapiyasında istifadə olunan "Can teslim olmuştu. "Peki n`olucak? Uyuyacak mıyım? Halüsinasyon falan mı görücem?" ifadəsi də yuxarıda bəhs edilənə sübutdur.[1]

III fəslin sonuncu yarımfəsli**"Psixoloji romanda zaman, məkan və fərdi genetik-psixoloji amillər"** adlanır.

Burada qeyd edilir ki, bədii tipin yaradılması sənətkardan böyük istedad, zəngin həyat müşahidəsi tələb edir. Bədii tip yaradılarkən ilk növbədə prototip tapılır,sənətkar bədii tipi yaradarkən həyatda gördüyü insana əsaslanır və prototip üzərində bədii ümumiləşmə aparılır. Məlumdur ki, tiplər, əsasən, iki qrupa ayrılır: ictimai və psixoloji tiplər. İctimai tiplər konkret bir dövrün və ya ideologiyanın, psixoloji tiplər isə bəşəri xüsusiyyətləri əks etdirir. Tənzimat dövründən ötən əsrin 50-ci illərinə qədər türk ədəbiyyatında ictimai tiplər üstünlük təşkil etmişdir. Onlar aid olduqları dövrü həm ideoloji, həm psixoloji cəhətdən əks etdirirlər: Behruz – "Araba sevdası" ("Araba Sevdası"), Əhməd Cəlal – "Yabanı" ("Yaban"), Şahin Əfəndi – "Yaşıl gecə" ("Yeşil Gece") və s. tiplər həmin dönəmin problemlərini dilə gətirən obrazlardır. 1950-ci ildən sonra ictimai tiplər getdikcə azalır, psixoloji tiplərin üstünlük təşkil etdiyiromanlar yazılmağa başlayır.Əhməd Həmdi Tanpınar, Oğuz Atay, Yusif Atılqan, Ədalət Ağaoğlu və s. kimi müəlliflərin romanlarında belə nümunələrə rast gəlirik. Mümtaz ("Hüzur"), Turgut ("Dözə bilməyənlər"), Zebercet ("Anayurd oteli"), İlhan ile Tezel ("Bir toy gecəsi") psixoloji tiplərə aid ən yaxşı nümunələrdəndir.

Rəşad Nurinin "Qadın düşməni" romanında, Yusif Atılqanın "Anayurd oteli", Duyğu Asenanın "Əslində eşq də yoxdur", "Paramparça", Oğuz Atayın "Dözə bilməyənlər", "Qorxunu gözləyərkən" ("Korkuyu Beklerken"), Ece Təməlquran "Banan səsləri" ("Muz Sesleri"), Orxan Pamukun "Qar", "Yeni həyat", Səbahəddin Əlinin "İçimizdəki şeytan" əsərlərində tənhalıq məsələsi müxtəlif formadaəks olunmuşdur. Bütün bu əsərlərdə tənhalıq mövzusu oxucuya daha aydın, daha bariz göstərilərkən Əlif Şəfəqin romanlarında tənhalıq açıq-aydın əks edilməmiş, uşaq obrazları və digər obrazların facisənin altında tənhalığın yatdığını müxtəlif psixoloji konspesiyaları dərindən tədqiq edərkən görmək mümkündür.

Kleptomaniyadan (oğurlamaq xəstəliyi) əziyyət çəkən obrazlar müxtəlif əsərlərdə mövcud olmuşdur. Orxan Pamukun "Məsumiyyət

---

[2]Kohen Akilah Azra. Fi. İstanbul: Destek Yayınları. 2017. s.162

muzeyi" romanı Kamalın Füsundan oğurladıqlarının sərgisi mövzusu əsasında qurulmuşdur. Psxoloqların fikrincə kleptomaniya depressiyanın, cinsi natamamlığın həlli üçün insanların baş vurduğu üsuldur.Onların fikrincə, natamamlıq kompleksi yaşayan insanlar əslində istifadə etməyi belə düşünmədikləri əşyaları oğurlayaraq rahatlaşırlar. Orxan Pamukun yaratdığı Kamal sevdiyi qadını xatırlatdığını, oğurladığı əşyaların ona Füsundan bir parça kimi lazım olduğunu qeyd etsə də əslində özünü sakitləşdirmək üçün bu yola əl atır. Kleptomaniyadan əziyyət çəkən qəhramanlardan biri də Əhməd Altanın "Aldatmaq" romanındakı Aydandır. Aydan Cemdən ayrıldıqdan sonra qonşu evlərdən müxtəlif əşyaları oğurlayaraq zibil yeşiklərinə atır.Cemlə münasibəti dövründə hiss etdiyi həyəcanın yerində ondan ayrıldıqdan sonra boşluq yaranır, depressiyaya girir. Oğurluq vasitəsi ilə itirdiyi həyəcanı bərpa etməyə çalışır. Kleptomaniya xəstəliyinin əks olunduğu digər romanlardan biri də Şəbnəm İşigözəlin "Sarmaşıq" romanıdır. Əsərdəki Xəyal obrazının qonşusu Sədəfdə kepltoman xəstəliyi mövcuddur. Sədəfin özünə inamı zəifdir. Oğurladığı lampaların evinə xoşbəxtlik gətirəcəyini fikirləşir.

Əlif Şəfəqin "Siyah süd" romanında yeni uşaq dünyaya gətirən qadınların keçirdiyi psixoloji böhranları, şəxsi problemlərlə məişət qayğıları arasında çırpınan ananın depresiyaları əks etdirilməyə çalışılır. Romanda depressiya əleyhinə istifadə olunan dərmanlardan bəhs edilmişdir. Həkimlə dialoqun olduğu hissədə həkimin depressiya üçün Cipralex, xanax, prozac kimi dərmanları məsləhət gördüyünü qeyd etmişdir.

Yusif Atılqanın "Avara adam" romanında C.-də oidipus kompleksi mövcuddur. Freydin fikrincə oidipus kompleksindən əziyyət çəkən insanlar öz cinsindən olan valideynə qarşı şüuraltı nifrət, əks cinsdən olan valideynə isə normaldan çox sevgi bəsləməsi məsələsidir. "Avara adam" romanında C. anası vəfat etdikdən sonra xalasını anası yerinə qoyur. C.-nin anasına olan bağlılığı onun sevgi münasibətinə də təsir edir. Sevgili seçərkən Gülərin anasına, Ayşəninsə xalasına bənzəməsi qarşısında qərarsız qaldığı üçün ikisindən də imtina edib əxlaqsız bir qadını evə aparıb onun ancaq dizlərinə başını qoyur. C. bütün qadınlarda anasını axtarır. Atasızlıq, ata ilə övlad arasındakı problemlər türk psixoloji romanında ən çox istifadə olunan mövzulardan biri olmuşdur. Bu mövzuya digər müəlliflər kimi İnci Aral da müraciət etmişdir. Jurnalist Tolqa Meriçin reportajlar əsasında hazırladığı "Unutmaq" adlı kitabda atasının  ona olan inamı, buna görədə

gizlədilməyə çalışılan qəzəbi gördüyünü qeyd edən [1]sənətkar "Ölü erkək quşlar", "Bənövşəyi" ("Mor"), "Zəfəran sarısı" ("Safran Sarısı"), "Sədaqət" ("Sadakat") romanlarında bu mövzuya toxunulmuş, obrazların psixoloji vəziyyətində yaranan problemlərin altında ata-övlad münasibətlərinin zəifliyi, uşaqlıqdakı ataların yaratdığı travmalar olmuşdur. Onun "Ölü erkək quşlar" romanında Onurun atası qumarbazdır. Buna görə də Onur və anası çətinlik içərisində yaşamışlar.Yazıçının "Bənövşəyi" romanında İbrahim ağa çox içdiyi üçün uşaqları ilə arasında dərin uçrumlar mövcuddur.

"Sədaqət" romanında isə Fərdanın atası anasına xəyanət etdiyi üçün atasına şüuraltı nifrəti mövcuddur. İnci Aral eyni zamanda ölümün dəobrazların həyatında yaratdığı dəyişkiliyi, psixoloji sarsıntını əks edirməyə çalışan sənətkarlardan olmuşdur.

Şəbnəm İşigözəlin "Sarmaşıq" romanında Əli Fərah rəng korluğu xəstəliyindən əziyyət çəkir. Nobel mükafatı laueratı Səlim Abidin isə hərfləri belətanıya bilməyəcək qədər ağır nevroloji xəstədir. Hər ikisi həkimmüayinəsi müddətində olarkən tanış olurlar. Əsərdə Əli Fərahın bacısı Xəyalın katotonik şizofreniyadan əziyyət çəkməsi, Əli Fərah və Səlim Abdullanın həyatlarındakı hadisələrin bir- birinə dolanmasından danışılır. Əli Fərahın anası da şizofreniyadan əziyyət çəkir. Anasına təcavüz edən atası isə daim onu öldürə bilərlər qorxusu ilə paronoid şizofreniyaya tutulur. Əli Fərahın həm həm də cinsi problemi var. Atasının qadağalarına, özünə olan inamının zədələməsinə baxmayaraq rəssam olan Əli Fərah sonrakı illərdə nevroloji xəstəliyə duçar olur.

Aşkım Qapışmaqın "Üzümlü keks" adlı romanında psixoloq Zeynəbin ata-anasının vəfatından sonra autizm xəstəsi qardaşına qarşı olan həssaslığı əsk olunmuşdur. Zeynəb ilə Azra Kohenin "Fi", "Çi", "Pi" romanlarındakı Bilgə dəautizm xəstəsi qardaşları olan psixoloqlardır. "Üzümlü keks" romanında, əsasən, danışa bilməyən, ancaq müşahidələri ilə həyata öz baxışı olan Enesin daxili aləmini əks etdirmişdir.

Fəslin yekunu olaraq qeyd edilir ki, burada təhlilə cəlb edilən psixoloji romanların bir qismində tip və xarakterlərin bəzi danışıq, hərəkət (hərəkətsizlik) və davranışlarını şərtləndirən psixoloji motiv və səbəblərin qaynaqlarını aşkarlamaq çətindir. Lakin zaman və məkan faktorunun, genetik fərdi-psixoloji amil və xəstəliklərin, insan psixologiyasında baş verən şüuraltı proseslərin instinktlərə təsirinin psixoloji romanlarda obrazların əmək fəaliyyətində və ailə-məişət həyatında, bütövlükdə

[1]Meriç Tolga. İnci Aral. Unutmak. İstanbul:Merkez Kitapları, 2008, s. 17

cəmiyyətdəki sosial yaşantısında mənfi və müsbət nəticələrinin elmi-psixoloji əsaslandırılması mümkün olur.

Dissertasiya işinin **"Nəticə"** hissəsində ayrı-ayrı fəsillərdə irəli sürülən mülahizələr, əldə olunan ilmi qənaətlər ümumiləşdirilmişdir. Burada qeyd olunur ki, insanın sosial-mədəni həyatı və mənəviyyatının mürəkkəb problemlərinin bədii-estetik dərki, təhlili və həlli yolları oxucuya çoxşaxəli ədəbi janr və formalarda təqdim olunur. Digər janrlarla müqayisədə, roman janrı bu problemlərin hərtərəfli inikası baxımından sənətkar qarşısında daha geniş imkanlar açır. Müasir türk ədəbiyyatında təxminən yüzəlliillik tarixi olan bu epik janrın psixoloji roman və onun sosial-psixoloji, lirik-psixoloji və fəlsəfi-psixoloji kimi formalarındakı əsərlər mühüm yer tutur. Müasir türk romanında mövzunun işlənməsi, ideya-məzmun qatının açılması, obrazların tip və xarakterə çevrilməsi, bədii konfliktin yaradılması və həlli üçün psixologizmin bütün təməl komponentlərindən – daxili dialoq, təyin məcmusu, birbaşa, yaxud dolayı psixologizm, şüur axını və s. istifadə olunmuşdur. Bu romanlarda müasir Türkiyənin həyat həqiqətləri, sosial və cinsi mənsubiyyəti, dini etiqadı və siyasi düşüncəsi nə olursa olsun, türk insanının yaşam tərzi realist boyalarla, polifonik bədii-estetik üsul və yazı texnikası ilə reallaşdırılır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı kitab, məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Alxanova Q.Rəşad Nuri Güntəkinin romanlarında insan psixologiyası. Bakı: "Adiloğlu" nəşriyyatı, 2005, 60 s.
2. Alxanova Q. Bədii nəsrdə qadın xəyanətinin psixoloji motivasiyası // Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, Bakı, BDU, № 1(77), 2011, s.106-108
3. Alxanova Q. "Bunalım" ədəbiyyatının bədi-estetik xüsusiyyətləri // "Şərq filologiyasının aktual problemləri" mövzusunda Respublika elmi konfransının matrealları, Bakı, 2011, s.197-198
4. Alxanova Q. Kürşat Başarın "Başucumda musiqi" romanında qəhramanların bədii- psixoloji və real dünyası // Dil və ədəbiyyat beynəlxalq elmi- nəzəri jurnal, Bakı, BDU, № 2(73), 2010, s.209-213
5. Alxanova Q. Peyami Safanın dərin psixoloji əsaslara əsaslanan romanları və roman qəhramanları // Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, Bakı, BDU, № 3(74), 2010, s.208-213

6. Alxanova Q. Oğuz Atayın “Tutunamayalar” romanında böhranlı qəhramanlar aləmi // Ali məktəblər arası elmi məqalələr məcmuəsi, Bakı, BSU, № 3(74), 2011, s.102-105
7. Alxanova Q. Türk ədəbiyyatında roman janrına keçid mərhələləri haqqında // “Şərqşünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransının matreallari, Bakı, BDU, 2011, s.452-456
8. Alxanova Q.Türk ədəbiyyatında psixoloji roman məhfumu // “Müasir şərqşünaslığın aktual problemləri” mövzusunda beynəlxalq elmi konfransının matreallari, Bakı, Zərdabi LTD,01-02 iyun, 2011, s.138-139
9. Алханова К. С. Духовный мир героев романа Зюлфю Ливанели “Счастъе” Вестник МГО № 6/13, М., 2013, 92-96 с.
10. Alhanova Kamer. Leyla Erbil`in Romanlarında Psikolojik Tahliller. (Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması) Eskişehir: Türk Dünyası Kültür Başkenti Ajansı Yayınları, III c., 24-28 Mayıs, 2014, 407-413

**Алханова Камер Сехбалы**

## Психологический роман в турецкой литературе

## РЕЗЮМЕ

В диссертационной работе, состоящей из введения, трех глав, заключения и списка использованной литературы, рассматривается специфика психологического романа в турецкой прозе, осуществляется сравнительный анализ героев, прояснение структуры их личности, исследуются типы героев, способы и формы раскрытия их внутренней жизни, концепции личности, свободы и судьбы на основе материалов творчества видных представителей турецкой прозы. Подвергаются научному анализу около 50 лирико-психологических, социально-психологических и философско-психологических романов более тридцати авторов, среди которых можно выделить Намыка Кемаля, Набизаде Назима, Халида Зии и Мехмета Рауфа, Пеями Сафа, Решада Нури, Элиф Шафак, Юсуфа Атылгана, Огуза Атая, Азру Кохена и др.

В I главе даются углубленные сведения о жанровой природе и структуре романа в турецкой прозе, общие тенденции развития психологического романа, сопоставительное изучение идейно-художественных концепций, анализируются первые психологические турецкие романы “Сентябрь” (М.Рауф), “Запретная любовь” (Х.Зия), “Возрождение” (Н.Кемаль) и “Зехра” (Н.Назим).

Во II главе рассматриваются жанровые формы психологического романа в турецкой прозе – лирико-психологический и философско-психологический на основе материалов творчества Решада Нури и Пеями Сафа, исследуются проблемно-тематические и идейно-эстетические особенности романов Саита Фаика.

III глава посвящена изучению экзистенциалистской тенденции в турецкой литературе (“литература буналым” или “литература отчуждения”), представленной творчеством Гювен Турана, Саадета Тимура, Неджати Тосунера, Лейлы Эрбиль, Огуза Атая и т.д. В этой же главе осуществляется сопоставительный анализ героев, прояснение структуры их личности, конфликтность отношений, противоречие человеческого бытия на основе романов Элифа Шафака, Юсуфа Атылгана, Айше Кулин, Дуйгу Асены, Ахмеда Алтана и др. авторов.

В Заключении обобщены основные научно-теоретические выводы исследования.

**Alkhanova Kamer Sohbali**

## Psychological novel in Turkish literature

## SUMMARY

The thesis deals with the psychological novels in Turkish literature based on the works of the significant representatives of the Turkish prose Namık Kemal, Nabizade Nazım, Khalid Ziya and Mehmet Rauf. Along with this, in the study of the chosen topic, about 50 lyrical and psychological, social and psychological and philosophical and psychological novels of more than thirty authors were considered. Among them the works of  Peyami Safa, Reshat Nuri, Elif Shafak, Yusuf Atylgan, Oghuz Atay, Azra Kohen, etc.

The first chapter gives in-depth information about the genre nature and structure of the novel in Turkish prose, general tendencies in development of the psychological novel, comparative study of ideological and artistic concepts.This chapter analyzes such first psychological Turkish novels as “September” (Mehmet Rauf), “Forbidden Love” (Khalid Ziya), “Revival” (Namık Kemal) and “Zehra” (Nabizade Nazım).

In the second chapter, two genre forms of the psychological novel in Turkish prose-lyrical and psychological and philosophical and psychological are considered on the basis of the work of Reshat Nuri and Peyami Safa, and the problem-thematic and ideological content of the novels of Sait Faik, who is considered a follower of Peyami Safa.

The third chapter is devoted to the study of the existentialist tendency in Turkish literature-“Literature of the Solitude,Frustration” or “Literature of Alienation”, represented by the works of Guven Turan, Saadet Timur, Necati Tosuner, Leila Arbil, Oghuz Atay, etc. In this chapter, a relative analysis of the characters, clarifying the structure of their personality, the conflictual relations, the contradiction of human life based on the novels of Elif Shafak, Yusuf Atylgan, Ayshe Kulin, Duygu Asena, Ahmed Altan and other authors are carried out.

The Conclusion summarizes the key points and the most important results achieved during the study.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им.акад.З.М.БУНИЯТОВА**

---

*На правах рукописи*

**КАМЕР СЕХБАЛЫ кызы АЛХАНОВА**

# ПСИХОЛОГИЧЕСКИЙ РОМАН В ТУРЕЦКОЙ ЛИТЕРАТУРЕ

5717.01 –Литература тюркских народов

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ– 2018**